***Dövlətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün bu aran rayonumuzda da lazım olan bütün addımlar atılır. Həmin vəzifələr hələ mart ayının son günlərində, Saatlıda Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair keçirilən respublika müşavirəsində müəyyən edilmişdi. Müşavirədə geniş nitqlə çıxış edən dövlət başçısı demişdi ki, bu gün pambıqçılığın inkişafı artıq reallıqdır və 2016-cı il dönüş ili olmuşdur. Pambıqçılarımız 2016-cı ildə bütün imkanları səfərbər edərək dönüş yarada bilmişdilər. Çox ciddi tədbirlər görülmüş, texnika alınmış, dövlət dəstəyi göstərilmiş, meliorasiya işləri aparılmışdı. Nəticədə 51 min hektarda pambıq əkilmiş, 90 min tona yaxın məhsul götürülmüşdü. Bu isə 2015-ci illə müqayisədə üç dəfə çox idi. Möhtərəm Prezidentimiz 2017-ci ildə qarşıda daha böyük vəzifələrin dayandığını demişdir.***



# Kürdəmirlilər indiyədək 3 min tondan çox pambıq təhvil veriblər



Dövlət başçısının həmin tövsiyələrini yüksək səviyyədə həyata keçirən kürdəmirlilər bugünədək 3 min tondan çox pambıq tədarük ediblər. Rayon icra hakimiyyətindən öyrəndik ki, bu il 4 min hektar sahədə əkilmiş pambıq məhsulunun təhvil verilməsi üçün emal müəssisələri ilə müqavilə bağlanılıb. Rayonda pambıq yığımına başlanılandan bəri "MKT İK" MMC 3111 hektar



sahədən 2463,4 ton, "Kürdəmir kənd təsərrüfatı" MMC 876 hektar sahədən 402,4 ton, fərdi qaydada 40 hektar sahədən 144,5 ton pambıq tədarük edib.

Hər gün tarlalara 6 pambıqyığan maşın çıxarılıb. Əl ilə yığıma 2500 nəfərdən çox işçi qüvvəsi cəlb olunub. Rayon pambıqçıları hava şəraitinin törətdiyi çətinliklərə baxmayaraq, məhsulun tez və itkisiz yığılması üçün bütün qüvvələri səfərbərliyə alıblar.

Məlum olduğu kimi, dövlət başçısı pambığçılıqla bağlı olan bütün çıxışlarında ölkə sahibkarlarının və fermerlərin qarşısında böyük vəzifələrin dayandığını söyləyir. İnanılan və etimad göstərilən fermerlərdən biri də Kürdəmirin Qarasu kəndinin sakini Allahverən Allahverənovdur. Onun ailə təsərrüfatı bu mövsümdə 25 hektar sahədə pambıq əkib. Bildirilir ki, Qarasu kəndində pambıqçılıq vaxtilə əsas təsərrüfat sahəsi olub. Uzun fasilədən sonra aqrar sektorda aparılan islahatlar, Prezident İlham Əliyevin ixracyönümlü məhsulların, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi ilə əlaqədar verdiyi tapşırıq və tövsiyələr rayonda, o cümlədən, Qarasu kəndində də əhali tərəfindən böyük razılıqla qarşılanıb.

Kənd sakini, pambıqçılıq sahəsində zəngin təcrübəsi olan Allahverən kişinin ailəsi bu il əkin sahələrində bol "ağ qızıl" yetişdirib. Artıq yığımın başlanmasından xeyli vaxt keçsə də, məhsul yığımı hələ də davam etdirilir. Sahələrdən 25 sentnerdən çox məhsul götürəcəyini söyləyən A. Allahverənov deyib: "Ailə üzvlərimizin çoxu, demək olar ki, işsiz idi. Bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlərə görə cənab Prezidentimizə minnətdarıq. İndi hamımız işləyirik. Bu il satacağımız məhsuldan yaxşı gəlir götürəcəyik. Dövlət dəstəyi ildən-ilə təsərrüfatımızı daha da genişləndirməyə imkan verir".

Ancaq təkcə ailə təsərrüfatları deyil, ümumiyyətlə, bütün kürdəmirlilər pambıq yığımına səfərbər ediliblər. Rayon icra hakimiyyətində bildirdilər ki, pambıq yığımına 2500 nəfərdən çox işçi qüvvəsi cəlb olunub. Ümumiyyətlə, səsləndirilən faktlar və rəqəmlər dövri olaraq dəyişir. Çünki rayonda pambıq yığımı davam edir. Yenikənd, Böyük Kəngərli, Qocalı, Pirili, Köhünlü, Şilyan, Qarasu və bir sıra digər ərazi vahidlərində bol məhsul yetişdirilib.

Başqa bir yenilik isə ondan ibarətdir ki, bu ildən etibarən tədarük edilən xam pambıq başqa rayonlara deyil, rayonun Sor-Sor kəndi ərazisində "MKT-İK" MMC tərəfindən və Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə Qarabucaq qəsəbəsi ərazisində tikilən 2 qəbul məntəqəsinə təhvil verilir.

Rayonun Qarasu kənd sakini, pambıq istehsalçısı Əlyusif Teyyubov bu il 32 hektar sahədə pambıq əkib. Bol məhsul yetişdirdiyini bildirən pambıq istehsalçısı əkdiyi sahənin hər hektarından 25 sentnerdən çox məhsul yığacağını söyləyib. Əliyusif Teyyubov yaradılan şəraitə, dəstəyə görə ölkə başçısına minnətdarlığını bildirib.

Xatırladım ki, pambıq yığımına başlanan ilk günlər rayonda əsl bayram əhval-ruhiyyəsi var idi. Yadımdadır, pambıq yüklənən lafet karvanının yeni inşa olunan məntəqələrə yola salındığı gün keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, pambıq istehsalçıları, fermerlər, torpaq mülkiyyətçiləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Pambıqla doldurulan 30 lafetin qəbul məntəqələrinə göndərilməsi əsl məhsul bayramı təəssüratı yaradırdı.

Həmin tədbirdə çıxış edən RİH başçısı C. Cəfərov ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən, strateji məhsul olan pambıqçılığın inkişafı ilə əlaqədar ölkə Prezidenti İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələrlə bağlı qarşıda duran vəzifələrdən, bu sahəyə göstərilən dövlət dəstəyindən ətraflı danışmışdı. İcra başçısı cari ildə rayonda 4027 hektarda pambıq yetişdirildiyini, bununla bağlı müvafiq olaraq, ümumilikdə 200 nəfər pambıq istehsalçısı ilə müqavilə bağlanıldığını bildirmişdi.

Qeyd edilmişdi ki, rayonda pambığın becərilməsində suvarma, gübrələmə, kultivasiya, zərərverici və xəstəliklərə qarşı mübarizə, ucvurma və sair kimi aqrotexniki tədbirlər vaxtında həyata keçirilib. Pambıq istehsalçısı Şakir Teyyubov ötən il 20 hektar sahədə pambıq əkdiyini və 25,5 sentner məhsul götürdüyünü, bu il isə pambıq sahəsini artıraraq 40 hektara çatdırdığını bildirmişdi. Pambıq istehsalçıları onlara yaradılan şəraitə, dəstəyə görə ölkə rəhbəri möhtərəm Prezidentimizə öz minnətdarlıqlarını bildirmişdilər. Vurğulanmışdı ki, rayonun Carlı, Sığırlı, Qocalı, Köhünlü, Şilyan, Qarasu və bir sıra digər ərazi vahidlərində bol məhsul yetişdirilib.

Ceyhun müəllimlə söhbətimizdə məlum oldu ki, rayon rəhbəri təkcə bu ilin məhsulu barədə düşünmür, gələn il görüləcək işlər barədə də özünəməxsus planları var: "Prezident İlham Əliyev Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığını, pambığın da ixracyönümlü məhsul olduğunu və bu sahənin ciddi inkişaf etdirilməsini qarşımıza mühüm vəzifə kimi qoymuşdur. Həmin tapşırığın icrasını təmin etmək məqsədilə rayonda bütün imkanlar təhlil olunaraq, bu il becərmə işləri aqrotexniki qaydalara uyğun aparılıb, sahələrdə bol məhsul yetişdirilib. Artıq 3 min tondan çox pambıq tədarük olunub. Başlıca vəzifəmiz yığımın mütəşəkkilliyini artırmaqla, qalan qısa müddət ərzində məhsulu itkisiz yığıb təhvil verməkdən ibarətdir".

Rayon rəhbəri qeyd etdi ki, pambıqçılığın inkişafı ilə əlaqədar Prezidentin tapşırığına uyğun olaraq, pambıq sahələrinin gələn il bir daha artırılması planlaşdırılır . Odur ki, pambıq əkiləcək yerlər indidən seçilməlidir: "Onu da qeyd edim ki, yüksək məhsul götürmək üçün pambıq əkiləsi sahələrin şumu keyfiyyətli aparılacaq, qış aratına üstünlük veriləcəkdir".

Biz də öz növbəmizdə "ağ qızıl" ustalarına uğurlar arzuladıq. İnanırıq ki, onların nümayiş etdirdiyi təşəbbüskarlıq və işgüzarlıq ölkəmizin daha da qüdrətlənməsi istiqamətində həyata keçirilən siyasətə verilən töhfələr kimi qiymətləndiriləcək.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***



